Azərbaycan.- 2021.- 21 aprel. S. 8.

# Azərbaycan heç kəsin köməyi olmadan da öz ərazilərini bərpa etmək qüdrətindədir

## Bunun üçün dövlətimizin siyasi iradəsi və iqtisadi imkanı kifayət qədərdir

44 günlük Vətən müharibəsində ərazilərimizin işğaldan azad olunması uğrunda apardığımız savaş bütün beynəlxalq qanunlara görə ədalətli idi. Lakin hələ də ermənipərəst dövlətlər və bir sıra beynəlxalq təşkilatlar Azərbaycanın haqq işinə müxtəlif bəhanələrlə kölgə salmaq istəyirlər. Elə Minsk qrupunun son bəyanatı da bunu bir daha aydın göstərir.

Prezident İlham Əliyev bütün bəyanatlarında vurğulayır ki, müharibə başa çatıb, Azərbaycan indi düşmənin barbarcasına dağıtdığı ərazilərin bərpası ilə məşğuldur. Bununla yanaşı, dövlət başçısı Ermənistanı da qisasçılıqdan əl çəkib əməkdaşlığa dəvət edir.

Yeni marşrutların açılması, xüsusilə Zəngəzur dəhlizinin fəaliyyətə başlaması qonşu ölkənin iqtisadi inkişafına təkan verəcək. Bu səbəbdən də Ermənistan bu dəhlizin tezliklə fəaliyyətə başlamasında maraqlı tərəf olmalıdır. Xüsusən də o, siyasi, hərbi-psixoloji böhranla yanaşı, həm də ciddi iqtisadi böhran yaşayırsa. Odur ki, ermənilər müharibədən sonra yaranan yeni reallıqları nə qədər tez anlayıb qəbul etsələr, bu, onların xeyrinə olar. Ermənistan region ölkələri ilə iqtisadi əməkdaşlığa başlasa, düşdüyü böhrandan daha tez çıxa bilər. Bunun üçün ermənilər, Prezident İlham Əliyevin dediyi kimi, müharibənin bitdiyini, indi əməkdaşlıq vaxtı olduğunu qəbul etməlidirlər.

Ermənistanın hansı mövqe tutmasından asılı olmayaraq ölkəmiz müharibədən sonrakı dövrdə genişmiqyaslı quruculuq-bərpa işlərinə start verib. Hazırda işğaldan azad olunmuş ərazilərdə iri infrastruktur layihələrinin icrası həyata keçirilir. Kəlbəcərdə düşmən tərəfindən dağıdılan 12 su elektrik stansiyasının bərpa işləri uğurla davam edir, Laçın və Kəlbəcərin külək enerjisindən istifadə olunması üçün layihələr hazırlanır. Bununla yanaşı, Cəbrayıl və Zəngilan rayonlarında gələcəkdə günəş enerjisi layihələri həyata keçiriləcək. Eyni zamanda, ermənilər tərəfindən qanunsuz və vəhşicəsinə istismar edilmiş Kəlbəcər və Zəngilan rayonlarındakı qızıl və mis yataqlarının istismarına da hazırlıq işləri görülür.

Prezident İlham Əliyev aprelin 13-də ADA Universitetində keçirilən "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" adlı beynəlxalq konfransda ölkəmizin müharibədən sonrakı dövrdə görəcəyi işlər barədə mövqeyini bildirərək deməşdir: "Sözsüz ki, biz həmin ərazilərdə xüsusi yaşayış standartları yaratmaq istəyirik, çünki oraya qayıdacaq insanlar 30 il əziyyət çəkiblər. Onların layiqli həyata ehtiyacı var. Ona görə də "ağıllı kənd" üzrə ilk pilot layihəyə artıq başlanılıb, şəhər planlaşdırılmasına başlanılıb. Beləliklə, Qarabağ iqtisadiyyatımızın qeyri-enerji sektorunda, həmçinin nəqliyyatda böyük həcmdə ümumi daxili məhsul istehsal edəcək. Üç hava limanı ilə bağlı proses artıq başlayıb. Bir hava limanında işlər artıq başlayıb".

Dövlət başçısı konfrans iştirakçılarının nəzərinə çatdırmışdır ki, Zəngəzur dəhlizinin fəaliyyətə başlaması region ölkələrinin iqtisadi əlaqələrinin inkişafına müsbət təsir göstərəcək. Məlumdur ki, müharibə qurtardıqdan dərhal sonra dövlət başçısı regionun 6 ölkəsini bu dəhliz ətrafında əməkdaşlığa dəvət etmişdir. Lakin Ermənistan tərəfindən 10 noyabr bəyanatına zidd olan fikirlər səslənir. Onlar bəyanatın kommunikasiyaların açılması ilə bağlı maddəsinə əməl etməmək üçün müxtəlif bəhanələrə əl atırlar. Elə bu səbəbdən Azərbaycan dövlət başçısı ADA-da keçirilən beynəlxalq konfransda erməniləri xəbərdar edərək bildirmişdir: "...Zəngəzur dəhlizi mütləq istifadəyə veriləcək. Biz hədəf kimi iki, iki il yarım müddət müəyyən etmişik. Mehri bölgəsindən keçən 40 kilometrlik yolun inşası bundan çox vaxt apara bilməz. Əlbəttə, bunlar əlaqələndirmə şəraitində və Ermənistan tərəfindən süni maneələr yaradılmadığı halda baş tuta bilər". Bununla Prezident dünyanın müxtəlif beyin mərkəzlərini təmsil edən konfrans iştirakçılarının nəzərinə çatdırmışdır ki, Azərbaycan konstruktiv əməkdaşlığa hazırdır. Bu əməkdaşlığın baş tutması üçün isə Ermənistan tərəfinin də zəruri addımlar atması vacibdir.

Müharibənin sona çatdığını və tarixi qələbə qazanaraq ərazilərimiz üzərində suverenliyimizi bərpa etməyimizi gözügötürməyən dövlətlər və beynəlxalq təşkilatlar yenə də siyasi oyunbazlıqdan əl çəkmirlər. Onların başlıca bəhanəsi "erməni əhalisinin təhlükəsizliyi və statusu"dur. Statusun cəhənnəmə getdiyini Azərbaycan Prezidenti dəfələrlə bəyan edib. Dövlət başçısı konfransda bu məsələyə də aydınlıq gətirərək bildirmişdir ki, müharibə yenicə qurtarsa da, onun vurduğu yaralar hələ sağalmasa da, Azərbaycan xalqı ermənilərə qarşı aqressiv davranmır. İndiyə qədər onlara döyüş meydanından 1500-dən çox erməni əsgərinin cəsədinin çıxarılması üçün imkan verilib. Zəngilan və Qubadlı rayonlarının ərazisindən ermənilərə 21 kilometr yoldan təhlükəsiz şəkildə istifadə etməyə şərait də yaradılıb.

Prezident konfrans iştirakçılarının suallarını cavablandırarkən ermənilərin təhlükəsizliyinə heç bir təhdid olmadığını bildirərək demişdir: "Rusiya sülhməramlıları bölgəni tərk etdikdən sonra nə olacaq sualına gəldikdə, bu gün Tovuz, Qazax və Ağstafa rayonları ərazisində Azərbaycan və Ermənistan arasında dövlət sərhədi mövcuddur. Orada sülhməramlılar yoxdur və heç nə baş vermir. Sizə deyim ki, Azərbaycan Sərhəd Xidmətinin əsgərləri bu gün Ermənistan kəndlərinin 5 metrliyində, Qubadlının məşhur Şurnuxu kəndində dayanır. Ermənilər kəndin onlara məxsus olduğunu iddia edirdilər, lakin xəritəyə baxdıqda onun Azərbaycan ərazisində yerləşdiyi müəyyən olundu. Biz oraya Sərhəd Xidmətinin nümayəndələrini göndərdik və mən onlara göstəriş verdim ki, orada xəttboyu yerləşsinlər, xətti keçməsinlər və həmin kənddə yaşayan ermənilərlə işləri olmasın".

Dünyada öz maraqları üçün ermənilərdən alət kimi istifadə etmək istəyən qüvvələrin nə deməsindən asılı olmayaraq, Azərbaycanın işğaldan azad edilmiş ərazilərin bərpası ilə bağlı öz planları var. Prezident İlham Əliyev ADA Universitetində keçirilən "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" adlı beynəlxalq konfransda bir daha dünyaya mesaj vermişdir ki, Qarabağda bərpa-quruculuq işlərinə başlanılıb və bu proses davam edəcək. Azərbaycan dövləti heç kəsin köməyi olmadan da öz ərazilərini bərpa etmək qüdrətindədir. Dövlət tezliklə həmin əraziləri bərpa edərək öz vətəndaşlarına layiqli həyat şəraiti yaradacaq. Bunun üçün bütün hazırlıq işləri görülür, infrastruktur layihələrinin icrası həyata keçirilir.

**_Rüstəm KAMAL,_**
**_"Azərbaycan"_**